# Azərbaycan Nadir şah imperiyasının tərkibində (1736-1747)



*Nadir şah Əfşar*





*Əfşar imperiyasının bayrağı və gerbi*



*Nadir şahın kəsdirdiyi pul*




### Muğan (Suqovuşan) qrultayı. Nadir şah Əfşar imperiyasının yaranması (1736)

Əfqanları zərərsizləşdirdikdən, Osmanlı və Rusiya dövlətləri tərəfindən zəbt olunmuş əraziləri geri qaytardıqdan və bununla da bütün Səfəvi ərazisində nəzarəti ələ aldıqdan sonra Nadir xan Əfşar bütün diqqətini hakimiyyət məsələsi üzərində cəmləşdirdi. Nadir xan Səfəvilər dövlətində ***naibüssəltənə (səltənət vəkili)*** adlansa da, əslində, real hakimiyyət onun əlində idi. Hakimiyyəti rəsmən ələ keçirmək üçün və özünü şah elan etmək üçün Nadir xan **1736-cı ilin mart ayında** Muğan düzünə, Kürlə Arazın qovuşduğu yerdə **Muğan (Suqovuşan) qurultayı** çağırdı. Suqovuşan qurultayında taxta kimin sahib olması məsələsi müzakirəyə çıxarıldı. Uzunsürən müzakirələrdən sonra qurultay iştirakçıları Nadirin şah seçilməsinə razı oldular.

Beləliklə, Suqavuşan qurultayı nəticəsində:

- ✓ ***Nadir xan özünü şah elan etdi, Əfşarlar dövləti yarandı.***
- ✓ ***Səfəvilərin sülaləsinin hakimiyyətinə son qoyuldu.***

Suqovuşan qurultayında aşağıdakı Azərbaycan feodalları Nadirin şah seçilməsinə qarşı çıxdılar:

- **Ziyadoğlu** kimi tanınan **Gəncə bəylərbəyi.**
- **Qarabağın - Otuzikilər, Kəbirli** və **Cavanşir tayfalarının başçıları.**

Nadir şah ona sadiq qalan feodal əyanları öz vəzifələrində saxladı. Lakin Nadirin şah seçilməsinə qarşı çıxan feodalları cəzalandırmaq məqsədi ilə şah onlara qarşı sonralar Azərbaycanın gələcək tarixi üçün uğursuz addımlar olan aşağıdakı tədbirləri həyata keçirdi:

- Həmin Azərbaycan feodallarının başçıları, ailələri ilə birlikdə ***Xorasana*** sürgün edildi.
- Gəncə bəylərbəyinə daxil olan **Borçalı** və **Qazax mahalları** o zaman Nadir şahdan vassal asılılığında olan **Kartli-Kaxetiya hakiminin** tabeliyinə verildi.
- Qarabağ bəylərbəyinə tabe olan **məlikliklər (Vərəndə, Çiləbörd, Gülüstan, Dizaq, Xaçın)** onun tabeliyindən çıxarılaraq şahın idarəsinə verildi.

*Nadir xanın şah seçilməsinə razı olmayan Azərbaycan feodalları*

- Ziyadoğlular
- Otuzikilər
- Kəbirlilər
- Cavanşirlilər

*Nadir xan Səfəvilər dövlətində rəhbərlik etsə də, qanuni dövlət rəhbəri deyildi. Dağıstan yürüşündən sonra o özünü qanuni dövlət rəhbəri elan etmək üçün Muğan qurultayının keçirilməsi üşün böyük təşkilatçılıq işləri apardı. Qurultaya şoxlu sayda adam dəvət olunduğu üçün təyin olunmuş məntəqədə 12 min çadır quruldu. 1736-cı il fevralın 14-də Muğan düzünə toplaşanlar Ramazan bayramını qeyd etdilər. Səhəri gün bütün iştirakçılar onlar üçün ayrılmış meydana toplaşdılar. Qurultayda tərəfdarlarının çoxluğuna nail olan Nadir xan şah elan olundu.*



## Nadir şahın daxili siyasəti

Nadir şah ölkədə mərkəzləşmiş dövlət yaratmaq üçün bir sıra tədbirlər - islahatlar həyata keçirdi:

- ✓ *İdarə aparatında bir sıra ali vəzifələr, o cümlədən baş vəzir, sədr-əzəm vəzifəsi ləğv edildi.*
- ✓ *Şahın hakimiyyətini qəbul etmiş hakimlərə nəzarət üçün onların yanına xüsusi* **naiblər** *təyin olundu.*
- ✓ *Dövlət dörd əyalətə* ***(Azərbaycan, Əcəm İraqı, Xorasan*** *və* ***Fars vilayətlərinə)*** *bölündü.*
- ✓ *Səfəvilər dövründə mövcud olan* ***Şirvan, Qarabağ, Çuxursəd*** *və* ***Təbriz bəylərbəyiliklərini*** *ləğv edərək paytaxtı* ***Təbriz*** *olan* ***vahid inzibati bölgü*** *yaradıldı.* ***İbrahim xanı*** *buraya başçı təyin edildi.*
- ✓ *Vergi islahatı keçirildi. Vergi toplanması işini qaydaya salmaq üçün* ***vəzifə bölgüsü*** *aparıldı. Bu işə ciddi nəzarət dövlətin gəlirini xeyli artırdı. Belə ki, xalqdan toplanılan vəsait indi ayrı-ayrı adamlar tərəfindən mənimsənilmədən* ***xəzinəyə*** *daxil edilirdi. Xəzinəyə daxil olan vergilərin çox hissəsi* ***ordunun saxlanılmasına*** *xərclənirdi.*
- ✓ *Həyata keçirilən hərbi islahat nəticəsində güclü ordu yaradıldı.*
- ✓ ***Rəiyyəti (kəndliləri)*** *hərbi qulluğa çağırıldı.*
- ✓ *Ruhanilərin var-dövləti dövlət xəzinəsi üçün müsadirə etdi.*

Nadir şahın daxili siyasəti nəticəsində:

- ➢ ***Mərkəzi hakimiyyəti gücləndi.***
- ➢ ***Ayrı-ayrı tayfa başçılarının mövqeyi zəiflədi.***

*Nadir şahın yaratdığı dövlət Səfəvilər dövlətindən fərqli olaraq, dini yox, dünyəvi dövlət idi. Nadir şah din xadimlərinin dövlət işlərinə müdaxiləsinin qarşısını almaqla yanaşı, özünə sərvət toplayan dindarlara qarşı tədbirlər həyata keçirdi. Məlumatlara görə, Nadir şah taxt-taca sahib olandan sonra yüksək məqamlara malik olan din xadimlərini toplayıb onlardan sərvətlərini necə əldə etdiklərini soruşmuş, onları dinlədikdən sonra əmr etmişdi ki, ruhanilərin var-dövləti dövlət xəzinəsi üçün müsadirə edilsin. Nadir şah islamda sünni və şiə məzhəblərinə parçalanmanın da əleyhinə idi. Nadir şah Quranla yanaşı, İncilin və Tövratın da tərcümə edilməsinə göstəriş vermişdi.*

## Nadir şahın güclü ordu yaratması

Nadir şah qoşunların formalaşdırılmasında Səfəvi dövlətinə aid olan bir sıra xüsusiyyətləri qoruyub saxlamaqla yanaşı ciddi yeniliklər etdi. Orduda yüngül artilleriyanın (zənburəklərin) istifadəsi genişləndirildi. Nadir şahın qoşunlarının aparıcı hissəsini ***süvari qoşun*** təşkil edirdi.

Dövlətin şimaldan və cənubdan, eyni zamanda dənizdən təhlükəsizliyini təmin etmək üçün İran körfəzində və Xəzər dənizində ***hərbi donanma*** yaratmaq qərara alındı. Bu məqsədlə İngiltərə, Hollandiya və Rusiya ilə danışıqlar aparıldı. Lakin bölgədə gələcək işğalçı planlarını həyata keçirmək istəyən Avropa dövlətləri Nadir şahın bu təşəbbüsü həyata keçirməsinə mane olmağa çalışırdılar. Osmanlı dövləti ilə yeni müharibənin başlanması Nadir şahı İran körfəzində hərbi dəniz donanması yaratmaq təşəbbüsünü təxirə salmağa məcbur etdi. Buna baxmayaraq, Nadir şah hərbi-dəniz donanması yaratmaq təşəbbüsünü sonralar da davam etdirdi. O, həm hərbi gəmilər düzəldilməsi,

həm də donanma mütəxəssislərinin yetişdirilməsi üçün bir sıra tədbirlər gördü. Bunun üçün Xəzərdə gəmiçilik zavodu tikdirdi. Onun səyi ilə top istehsal edən zavodlar inşa edildi.

Beləliklə, Nadir şahın hərbi islahatları nəticəsində güclü ordu yaradıldı. Məhz Nadir şahın hərbi səfərlərdə uğurlar əldə etməsinin səbəblərindən biri də onun güclü ordu yaratması idi.

Nadir şahın islahatları nəticəsində dövlət xeyli gücləndi. Lakin ölkədə vergi və mükəlləfiyyətlərin son dərəcə artırılması əhalini var-yoxdan çıxartdı. Şahın əmri ilə rəiyyət hərbi qulluğa çağırılırdı. Nadir şahın ***sənətkar və tacirləri*** **Xorasana** köçürməsi Azərbaycanın şəhər həyatına ağır zərbə vurdu. Nəticədə XVIII əsrin 30-40-cı illərində Azərbaycanın təsərrüfat həyatı tənəzzülə uğradı və mövcud hakimiyyətə qarşı çıxışlar baş verdi.



***Əfşar imperiyasının döyüşçüsü: piyada, bayraqdar, süvari və zənburək***

*Tarixçilər Nadir şahı Napoleonla müqayisə edirlər. Napoleon özü də Nadir şahın sərkərdəlik istedadı haqqında bu fikirləri söyləmişdir: “Nadir şah böyük döyüşçü idi, böyük qüdrət sahibi ola bilmişdi, ixtişaş yaradan fitnəkarları, düşmən qoşunlarını vahiməyə salırdı. O, Vətəninin düşmənlərinə qənim kəsildi və ölkəsinə iftixarla padşahlıq etdi”.*




### Azərbaycanın şimal-şərqində Nadirə qarşı ilk üsyanlar (1734-1735)

XVIII əsrin 30-cu illərinin ortalarında ***vergilərin ağırlığı*** və ***feodal zülmü*** Azərbaycanda xalqın vəziyyətinin ağırlaşmasına səbəb oldu. Nadir şahın ***köçürmə və vergi siyasəti*** əhali tərəfindən böyük narazılıqla qarşılanmışdı. Mövcud hakimiyyətə qarşı çıxışlar artırdı. Nadir şaha qarşı çıxışlar əsasən onun digər ərazilərə yürüşü zamanı baş verirdi. Müqavimət göstərə bilməyənlər isə ***daimi yaşayış yerlərini tərk edir, qonşu bölgələrə köçüb gedirdilər***. Məhz buna görə də torpağı becərməyə və orduya çağırmağa adam tapılmırdı. Nadir şah qaçanları tutub cəzalandırmağı və əvvəlki yaşayış yerlərinə qaytarmağı əmr etmişdi.

Nadirə qarşı üsyanlar ***ilk dəfə*** hələ Səfəvilər dövlətinin mövcud olduğu dövrdə, **1734-cü ildə Astaranın yoxsul kəndliləri** tərəfindən baş vermişdi. Eyni ildə **Şəki vilayətindəki Göynük mahalına daxil olan Biləcik kəndinin** əhalisi də üsyana başlamışdı. Üsyançılara Göynük mahalının digər kəndləri **Car** və **Tala** kəndlərinin sakinləri də qoşulmuşdu. Kəndli dəstələri Səfəvi məmurları və keşikçi dəstələrinin üzərinə hücum etmişdilər.



*Car və Tala əhalisinin istehkamlarından biri - Cingöz qalası*

**1735-ci ilin fevralında** Nadir xan üsyanı yatırmaq üçün oraya böyük cəza dəstəsi göndərdi. Nəticədə üsyan yatırıldı, Car və Tala sakinlərindən 160 nəfər girov götürüldü. Sonra şahın cəza dəstələri Dərbəndə qədər olan əraziləri hakimiyyət əleyhinə olan qüvvələrdən təmizləyə bildi.

Şirvan üsyanı yatırılsa da, ümumən Azərbaycanda xalq hərəkatı sarsılmadı. Həmin dövrdə **Şamaxıda** daha böyük üsyan baş verdiyindən Nadir şah **1734-cü ildə** Şamaxıya hücum etdi. Nadir xan öz qoşunu ilə Şamaxıya yaxınlaşanda, şəhər əhalisi ona müqavimət göstərdi. Bundan qəzəblənmiş Nadir xan ***Şamaxını ələ keçirdikdən sonra şəhəri yandıraraq darmadağın etdi, əhalisinin isə köçürülməsi əmrini verdi***. Beləliklə, 1735-ci ildə Şamaxı şəhəri yaxınlığında yeni **Ağsu (Yeni Şamaxı)** şəhərinin əsası qoyuldu. Bu dövrdən etibarən Ağsu şəhəri Şirvan hakimlərinin iqamətgahı oldu.



*Ağsu şəhərində «Xaraba şəhər»in qalıqları*

***Nadir şah əleyhinə üsyanların səbəbləri***

*Nadir şahın ağır vergi siyasəti*

*Yerli feodallların zülmü*

### Nadir şaha qarşı Car üsyanı (1738-1741)

Ölkədə yaranmış ağır sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılması məqsədilə Nadir şah uğurlu hərbi yürüşlər həyata keçirməyi nəzərdə tutmuşdu. Hərbi yürüşlərdən əldə edilmiş qənimət və sərvət xalqın rifahı üçün sərf edilməli idi. Digər tərəfdən hərbi yürüşləri həyata keçirmək üçün külli miqdarda pul vəsaiti lazım idi. Nadir şah həmin vəsaitin əldə olunması üçün əhalidən yığılan vergini pulla əvəz edərək vəziyyətdən çıxmaq istəsə də, buna nail ola bilmədi. Bu addım kəndlilərin daha da var-yoxdan çıxmasına və Nadirə, eləcə də mərkəzi hakimiyyətə qarşı yenidən mübarizəyə qalxmasına səbəb oldu.

Nadir şah **1737-ci ildə** böyük ordu ilə **Mərkəzi Asiyaya** və **Hindistana** yürüş etdi. Nadir şahın ölkədə olmamasından istifadə edən Azərbaycanın **şimal-qərb** bölgəsinin əhalisi **1738-ci ildə** yenidən üsyan etdi. Ən böyük üsyan **Carda** (hazırkı Zaqatala rayonunun ərazisində) baş verdi. Car üsyançıları **Dağıstandan** kömək aldılar. Üsyanı yatırmaq üçün Nadir şahın qardaşı, Azərbaycan bəylərbəyi **İbrahim xan** böyük ordu ilə buraya gəlsədə qanlı döyüş nəticəsində - ***xanın qouşun məğlub edildi və İbrahim xan ölümcül yaralandı.***

Cənubi Qafqazı itirməkdən ehtiyat edən Nadir şah **1741-ci ilin yazında** Mərkəzi Asiyaya səfərini başa çatdıraraq üsyançılara qarşı yürüşə özü başçılıq etdi və Car üsyanını böyük çətinliklə yatırdı.

### Şirvanda I Sam Mirzə üsyanı (1743)

**1743-cü ilin əvvəllərində** Şirvanda Nadir şaha qarşı başlanmış üsyanlar geniş vüsət aldı. Belə bir şəraitdə özlərini Səfəvi şahzadələri yəni II Təhmasibin oğulları kimi təqdim edən yalançı şahzadələr – **I, II, III Sam Mirzələr** meydana çıxdılar.

Əhalinin vəziyyətinin pisləşməsi Səfəvi dövlətinin bərpası meyillərinin güclənməsinə səbəb olmuşdu. Xalq Səfəvilər sülaləsinin yenidən hakimiyyətə qayıtması ilə vəziyyətin yaxşılaşacağına ümid edirdi. Şirvanda Nadir şah hökmranlığına qarşı yönəlmiş üsyan «əsl hökmdar» ideyası altında gedirdi. Əhali Əfşar sülaləsinin hökmranlığından narazı olduğu üçün yalançı şahzadəni – **I Sam Mirzəni** müdafiə etdi. **1743-cü ildə** I Sam Mirzə qısa bir müddət ərzində böyük dəstə toplayaraq Əfşarlar dövlətinə qarşı üsyan qaldırdı. Bəzi ***kiçik feodallar*** da üsyançılara qoşuldular. I Sam Mirzəyə Qazıqumuxlu Surxay xan kömək etmək üçün öz dəstəsilə onun düşərgəsinə gəlmiş və onlar birlikdə **Yeni Şamaxıya – Ağsuya** 50 min nəfərlik qoşunla hücum etdərək şəhəri tutmuşdular. I Sam Mirzənin xalqı ***vergilərdən azad etmək*** vədi onun xalq arasında nüfuzunu artırmışdı.

**1743-cü ildə** Nadir şah Şirvanda I Sam Mirzə üsyanını yatırmaq üçün oğlu **Nəsrullah Mirzəni** I Sam Mirzəyə qarşı ordu ilə Şamaxıya göndərdi. **1743-cü ildə** Nəsrullah Mirzənin başçılığı altında şah ordusu ilə I Sam Mirzə arasında Şamaxı yaxınlığında ***Şirvan düzənliyində*** həlledici döyüş baş verdi. Döyüş nəticəsində:

- ***I Sam Mirzənin qoşunu darmadağın edildi.***
- ***Nəsrullah Mirzə Şamaxıda Nadir şah idarə üsulunu bərpa etdi.***

### Şirvanda II Sam Mirzə üsyanı (1743)

I Sam Mirzə üsyanının yatırılmasına baxmayaraq Şirvanda Nadir şah əleyhinə mübarizə zəifləmədi. **1743-cü ilin sonlarında** xalq hərəkatına Ərdəbildən **Şirvana** gəlmiş **II Sam Mirzə** başçılıq etməyə başladı. Bu zaman Ağsudan Dərbəndə qədər olan bütün ərazilər hələ də üsyançıların əlində idi. Şirvan üsyançıları Ağsu şəhərini tutdular, şahın vergi toplayanlarını qovub, oraya özünü yeni «Səfəvi şahzadəsi» kimi qələmə verən II Sam Mirzəni dəvət etdilər. Şamaxılıların bu qələbəsi şimal-şərqi Azərbaycanda əhalini mübarizəyə ruhlandırdı. II Sam Mirzə Yeni Şamaxıya - Ağsuya gələn kimi ***xalqın rəğbətini qazanmaq məqsədi ilə*** bir sıra tədbir həyata keçirdi:

- ✓ ***Ağır vergiləri ləğv etdi.***
- ✓ ***Əhalidən az miqdarda vergi toplanması barədə göstəriş verdi.***

Bu tədbirlər üsyanın genişlənməsinə səbəb oldu. Şirvan üsyanı geniş vüsət alaraq Xəzər sahillərindən Gəncəyədək böyük bir ərazini əhatə etdi.

Bu zaman Osmanlı dövləti ilə müharibə aparan Nadir şah Şirvanda olan hadisələrdən narahat olduğu üçün oğlu Nəsrullah Mirzəni böyük bir qoşunla yenidən Şirvana göndərdi. Lakin döyüş nəticəsində Nəsrullah Mirzə şirvanlılalarla döyüşdə ***ağır məğlubiyyətə uğradı***. Bu məğlubiyyətdən sonra Nadir şah təcili tədbirlər görməyə məcbur oldu – ***şah Osmanlı dövləti ilə sülh müqaviləsi imzalayıb, əsas qüvvələrlə Azərbaycandakı üsyaları yatırtmağı qərara aldı.***

Yeni hərbi qüvvələr almış Nəsrullah Mirzənin qoşunu **1743-cü ilin sonlarında Ağsu yaxınlığında** üsyançılarla döyüşə girdi. Ağsu yaxınlığında baş vermiş döyüş nəticəsində:

- ➤ ***Nəsrullah Mirzə qalib gələrək Şirvan üsyanını yatırdı.***
- ➤ ***II Sam Mirzə məğlub olaraq Gürcüstana qaçdı.***

*Məğlub olaraq Gürcüstana qaçan II Sam Mirzəni Kartili-Kaxetiya çarı Teymuraz əsir alaraq Nəsrullah Mirzənin düşərgəsinə göndərdi. Nadir şah II Sam Mirzənin tutulmasında köməyinə və digər xidmətlərinə görə Araqvi vilayətini Teymuraza hədiyyə etdi. Araqvi vilayətindən başq Nadir şah hələ şah seçilərkən də Qazax və Borçalı mahallarınıda Kartili-Kaxetiya çarlığına hədiyyə etmişdi.*

### Ərdəbil və Təbrizdə III Sam Mirzə üsyanı (1747)

Şirvan və Şəki üsyanlarından sonra Azərbaycanda xalq kütlələrinin vəziyyəti daha da pisləşdi. Xalq kütlələrinin ağır vəziyyətinə baxmayaraq, Nadir şahın əhali üzərinə yeni vergilər qoyulması haqqında fərmanlar verməsi xalq kütlələrinin yeni silahlı üsyanlara başlaması üçün təkan oldu.

**XVIII əsrin 40-cı illərinin sonlarında** Azərbaycanın cənub vilayətlərində güclü üsyanlar başlandı. **1747-ci ildə** Nadir şah əleyhinə **Ərdəbil** və **Təbrizdə** baş verən üsyana Səfəvi ***hakimiyyətini bərpa etmək uğrunda*** mübarizə aparan **III Sam Mirzə** başçılıq edirdi. III Sam Mirzə şəhərlilərin böyük bir hissəsini öz tərəfinə çəkərək silahlı dəstələr yaratdı və onların köməyi ilə hakimiyyəti ələ aldı. Lakin III Sam Mİrzə üsyanı Nadirin əmisi oğlu **Əmiraslan xan** tərəfindən Təbrizdə qətlə yetirildi və üsyan yatırıldı.

***QEYD:*** I Sam Mirzə və II Sam Mirzə üsyanlar arasında müəyyən oxşar cəhətlər var idi: hər iki üsyan eyni ildə, Nadir şah idarə üsuluna qarşı, Şirvan ərazisində baş vermişdi, hər ikisi də Yeni Şamaxını – Ağsunu tutaraq əhalini bəzi vergilərdən azad etmişdi, hər iki üsyan Nadir şahın oğlu Nəsrullah Mirzə tərəfindən yatırılmışdı. I və II Sam Mirzələrdən fərqli olaraq III Sam Mirzə üsyanı Şirvanda deyil, Təbrizdə və Ərdəbildə baş vermişdi. Lakin Nadir şaha qarşı baş verən hər üç üsyanın başçıları Səfəvilər dövlətini bərpa etməyə çalışırdılar.

| *I Sam Mirzə üsyanı* | *II Sam Mirzə üsyanı* | *III Sam Mirzə üsyanı* |
|---|---|---|
| ✓ *1743-cü ilin əvvəllərində Şirvanda Nadir şaha qarşı xalq hərəkatına başçılıq etmişdi*<br>✓ *Yeni Şamaxını –Ağsunu tutaraq əhalini vergilərdən azad etmişdi*<br>✓ *Nəsrullah Mirzənin başçılığı altında şah ordusu ilə Şamaxı yaxınlığında baş verən döyüşdə məğlub olmuşdu* | ✓ *1743-cü ilin sonlarında Şirvanda Nadir şaha qarşı xalq hərəkatına başçılıq etmişdi*<br>✓ *Yeni Şamaxını –Ağsunu tutaraq əhalini vergilərdən azad etmişdi*<br>✓ *Nəsrullah Mirzənin başçılığı altında şah ordusu ilə Ağsu yaxınlığında baş verən döyüşdə məğlub olmuşdu* | ✓ *1747-ci ildə Nadir şah əleyhinə Ərdəbildə və Təbrizdə baş vermişdi*<br>✓ *Səfəvi hakimiyyətini bərpa etmək uğrunda mübarizə aparırdı*<br>✓ *Təbrizdə hakimiyyəti ələ almışdı*<br>✓ *Əmiraslan xan tərəfindən yatırılmışdı* |

**Nadir şaha qarşı baş vermiş üsyanları yatırmağa mane olan amillər**

- Nadirin Osmanlı dövləti ilə müharibə aparması
- Üsyanların eyni zamanda baş verməsi

### Hacı Çələbinin başçılığı ilə Şəki üsyanı (1743)

Şirvan üsyanı yatırılsa da, Azərbaycanda xalq hərəkatı zəifləmədi. Bu zaman Nadir şahın hakimiyyəti əleyhinə **Şəkidə** üsyan geniş vüsət almışdı. Şəki hakimi **Məlik Nəcəfin** ***qəddarlığı və ağır vergi siyasəti*** üsyanın başlanmasının başlıca səbəbi oldu. Hələ **1741-ci ildə** şəkililər Nadir şaha ərizə yazıb yerli hakim Məlik Nəcəfin özbaşınalığından, vergilərin artırılmasından şikayətlənmişdilər. Nadir şah əhalini sakitləşdirmək üçün Şəkidə böyük nüfuzu olan **Hacı Çələbini** Şəkiyə vəkil təyin etdi. Hacı Çələbi Məlik Nəcəfin əməllərinin qarşısını almağa çalışsa da, bundan narahat olan Məlik Nəcəf Hacı Çələbidən şaha şikayət etdi. Qəzəblənmiş Nadir şah onların ikisini də Dərbənd yaxınlığındakı düşərgəsinə çağırdı və Hacı Çələbinin asılmasını əmr etdi. Lakin Hacı Çələbi Nadirin hüzurunda cəsarətlə Məlik Nəcəfin vergiləri özbaşına artırdığını və xalqı şahdan narazı saldığını bildirdi.

Hacı Çələbi boynu kəndirdə ola-ola Nadir şahın ittihamına qarşı deyir: *«Məlik şahdan hansı tapşırığı alırsa-alsın buna bir neçə başqa tapşırıqlar da əlavə edir». Nadir şah inanır, öz əmirlərinə acıqlanaraq söyləyir: «Hamınız bunu bilə-bilə səsinizi çıxara bilmədiyiniz bir zamanda bu şəkili Çələbi boynu kəndirdə, məndən qorxmayıb öz rəyini bildirdi. İndi görəcəksiniz, o, yenə nəsə bir iş törədəcək. Mən öz zənnimdə heç vaxt yanılmıram». Sonra Nadir şah Hacı Çələbinin sözlərinə inanıb onu bağışladı və hətta vəkillik səlahiyyətini artırdı.*

Şahın yanından qayıtdıqdan sonra Hacı Çələbi Məlik Nəcəfi daha çox sıxışdırmağa başladı. Məlik Nəcəf yenə ondan şaha şikayət etdi. Nadir şah Hacı Çələbinin üzərinə 100 tümən cərimə qoydu. Hacı Çələbi cəriməni verməkdən boyun qaçırdıqda onu hüzuruna çağırdı. Bu dəfə edamdan yaxa qurtarmayacağını dərk edən Hacı Çələbi şahın hüzuruna getməkdən imtina etməklə yanaşı, Məlik Nəcəfin iqamətgahına hücum edərək onu öldürtdü və şahın adamlarını Şəkidən qovaraq, **1743-cü ildə** Şəki vilayətini ***müstəqil xanlıq***, özünü isə ***xan*** elan etdi. Bununla da Azərbycanda müstəqil dövlətlər olan xanlıqların yaradılmasının əsası qoyuldu.

Hacı Çələbinin bu addımı Azərbaycanda mərkəzi hakimiyyətə və Əfşarlar xanədanının hakimiyyətinə qarşı mübarizənin yeni mərhələsinin başlanğıcı oldu. Daxili və xarici vəziyyət Nadir şaha qoşunu parçalayıb bir hissəsini Şəkiyə göndərmək imkanı vermirdi. Bu zaman **Dərbənd, Car, Qarabağ, İrəvan bölgələrində** və dövlətin cənub ərazilərində də mərkəzi hakimiyyətə qarşı çıxışlar davam edirdi.

Hacı Çələbi xan tezliklə Nadir şahın ordusunun Şəkiyə yürüş edəcəyini anladığı üçün Şəki əhalisini **«Gələsən-görəsən» qalasına** köçürüb, oraya lazımi ərzaq və sursat ehtiyatı topladı. **1744-cü ilin payızında** Nadir şah Şəkiyə yürüş etsə də heç bir uğur qazana bilmədi.

**1745-ci ilin əvvəllərində** Nadir şah yenidən «Gələsən-görəsən» qalası üzərinə hücum etdi. Ancaq yenə də uğur qazana bilmədi. Bundan qəzəblənən şah Şəki şəhərinə od vurdurdu və qala qarşısında üç min döyüşçü qoyub buranı tərk etdi. «Gələsən-görəsən» qalası beş ay mühasirədə qaldığından **1746-cı ildə** qalada ***ərzaq ehtiyyatı*** tükəndi. Məhs bu səbəbə görə Hacı Çələbi vəkil vəzifəsində qalmaq şərti ilə Nadir şahın hakimiyyətini tanımağa məcbur oldu. Lakin Azərbaycanda xalq azadlıq hərəkatı sona çatmadı.



***«Gələsən-görəsən» qalasının qalıqları***

*Nadir şahın qoşunları «Gələsən-görəsən» qalasını fasilələrlə mühasirədə saxladı. Mühasirədə yaşamaq şəkililər üçün çətin olsa da, onlar uzun müddət mübarizə apardı və şaha sərt müqavimət göstərdilər. Belə rəvayət edirlər ki, üzbəüz duran qoşunlar uzaqdan-uzağa, qışqıra-qışqıra danışa bilirdilər. Bir dəfə Nadir şah özü danışığa girir və soruşur: «O necə qaladır ki, onu almaq olmur?» Ona cavab verirlər: «Gələsən-görəsən». Elə o vaxtdan qala el dilində «Gələsən-görəsən» adlanır.*

### XVIII əsrin 30-40-cı illərində Azərbaycanda Nadir şah əleyhinə üsyanların baş verdiyi ərazilər

**Üsyanlar**

- **Astara və Biləcik (1734)**
- **Car və Tala (1737)**
- **Şamaxı (1734)**
- **Şəki (1743)**
- **Dərbənd, Qarabağ, İrəvan (1743-1744)**
- **Təbriz və Ərdəbil (1747)**

## Nadir şah imperiyasının süqutu (1747)

Dövlət əleyhinə çıxışlardan təşvişə düşən Nadir şah üsyançılara qarşı cəza dəstəsi göndərmək üçün qüvvə tapa bilmirdi. Dövrün üsyanlarının səciyyəvi cəhəti onların ***eyni vaxtda başlanması*** idi. Bu isə şah qüvvələrinin parçalanmasına və maddi ehtiyatların tükənməsinə səbəb olurdu. Lakin üsyanlar ***kortəbii*** xarakter daşıyırdı. Üsyançılar yaxşı təşkilatlana bilməmişdilər. Üsyançıların aydın məqsədlərinin olmaması və daxili ziddiyyətlər onların taleyini əvvəlcədən həll edirdi. Bununla belə, həmin üsyanların böyük tarixi əhəmiyyəti vardı.



*Nadir şahın öldürülməsi (N.Nərimanovun "Nadir şah" əsərinə çəkilmiş illüstrasiya)*

Aramsız müharibələr, iqtisadi vəziyyətin ağırlığı, əhalinin var-yoxdan çıxması, sosial ziddiyyətlər Nadir şah dövlətini süquta doğru aparırdı. **1747-ci il iyunun 19-da** sui-qəsd nəticəsində Nadir şah öldürüldü. Nadir şahın ölümündən sonra onun yaratdığı imperiya süqut etdi. Nadir şahın öldürülməsi nəticəsində:

- ✓ ***Mərkəzi hakimiyyəti ələ keçirmək uğrunda mübarizə gücləndi.***
- ✓ ***İran, Orta Asiya və Qafqazda, o cümlədən Azərbaycanda müstəqil xanlıqlar meydana gəldi.***

### *XVIII əsrin 30-40-cı illərində Nadir şaha qarşı baş vermiş üsyanların səciyyəvi cəhətləri*

***Üsyanların səciyyəvi cəhətləri***

- *Eyni vaxtda başlamışdı*
- *Üsyançıların aydın məqsədi yox idi*
- *Əksəriyyəti kortəbii xarakter daşıyırdı*
- *Daxili ziddiyətlər onların taleyini əvvəlcədən həll edirdi*
- *Üsyançılar məqsədlərinə nail ola bilmədilər*

***Nadir şah dövlətinin süqutunun səbəbləri***

- Aramsız müharibələr
- Fasiləsiz üsyanların baş verməsi
- İqtisadi vəziyyətin ağırlığı





***Nadir şahın qəbirüstü abidəsi. Məşhəd şəhəri. İran***

*Nadir şah ölən zaman İranda Nadirin ölümünün baiskarı – qardaşı oğlu Əliqulu xan Adil şah adıyla hakimiyyəti ələ aldı. Digər tərəfdən İranda yenidən özünü Səfəvi xanədanı adlandıran yalançı Sam Mirzələr meydana gəldi. 1748-ci ildə Adil şahın qardaşı İbrahim xan onu taxtdan salıb hakimiyyətə gəldi. Nadirin əmisi oğlu Əmiraslan xan da hakimiyyət uğrunda mübarizəyə başladı. Nadir şahın qardaşı İbrahim xan Əmiraslan xanla hakimiyyət mübarizəsində ona qalib gələrək 10 ay hakimiyyətdə olsada Nadirin nəvəsi Şahrux xan tərəfindən taxrdan salındı. Lakin Şahruxun hakimiyyəti cəmi bir ay davam etdi. Bundan sonra xanlar məmləkətlərinə çəxilərək öz xanlıqlarını yaratdılar.*

## *XRONOLOGİYA*

| | |
|---|---|
| **1734-cü il** | Nadir xana qarşı ilk dəfə Astaranın yoxsul kəndliləri və Şəkinin Biləcik kəndinin əhalisi üsyan qaldırdı. |
| **1734-cü il** | Nadir şah Şamaxını tutaraq dağıtdı. |
| **1735-ci il** | Şamaxı şəhəri yaxınlığında yeni Ağsu (Yeni Şamaxı) şəhərinin əsası qoyuldu. |
| **1735-ci il fevral** | Nadir xanın cəza dəstələri Car, Biləcik, Şamaxı və Astara üsyanlarını yatırdı və Dərbəndə qədər olan əraziləri hakimiyyət əleyhinə olan qüvvələrdən təmizləndi. |
| **1736-cı il mart** | Suqavuşan qurultayında Nadir xan özünü İranın şahı elan etdi. Səfəvilərin sülaləsinin hakimiyyətinə son qoyuldu. |
| **1736-1747-ci illər** | Nadir şah imperiyasının mövcud olması. |
| **1737-ci il** | Nadir şahın əmri ilə rəiyyətin hərbi qulluğa çağırıldı. |
| **1737-1741-ci illər** | Nadir şah Mərkəzi Asiya və Hindistana yürüş etdi. |
| **1738-ci il** | Nadir şahın ölkədə olmamasından istifadə edən Azərbaycanın şimal-qərb bölgəsinin əhalisinin Nadir şahın kakimiyyətinə qarşı yenidən üsyan qaldırdı. Nadir şahın qardaşı İbrahim xan Car üsyançıları ilə döyüşdə məğlub oldu. |
| **1741-ci ilin yazı** | Nadir şah Car vilayətinə və Cənubi Dağıstana yürüş edərək üsyanları qismən yatırdı. |
| **1741-ci il** | Nadir şah Hacı Çələbini Şəki əyalətinə vəkil təyin etdi. |
| **1743-cü il** | Hacı Çələbinin məlik Nəcəfi öldürərək şahın adamlarını Şəkidən qovdu və Şəkini vilayətini müstəqil xanlıq, özünü isə xan elan etdi. |
| **1743-cü ilin əvvəlləri** | Şirvanda Nadir şaha qarşı üsyanlar geniş vüsət aldı. I Sam Mirzə Əfşarlar dövlətinə qarşı üsyan qaldırdı. I Sam Mirzə Yeni Şamaxını tutaraq xalqı bəzi vergilərdən azad etdi. |
| **1743-cü il** | Nadir şah Şirvanda I Sam Mirzə üsyanını yatırmaq üçün oğlu Nəsrullah Mirzəni I Sam Mirzəyə qarşı ordu ilə Şamaxıya göndərdi. |
| **1743-cü il** | Nəsrullah Mirzənin başçılığı altında şah ordusu ilə I Sam Mirzə arasında Şamaxı yaxınlığında Şirvan düzənliyində döyüş baş verdi. I Sam Mirzənin qoşunu darmadağın edildi. Nəsrullah Mirzə Şamaxıda Nadir şah idarə üsulunu bərpa etdi. |
| **1743-cü ilin sonları** | Şirvanda xalq üsyanına II Sam Mirzə başçılıq etməyə başladı. Şirvan üsyançıları Ağsu şəhərini tutdular. Nadir şah II Sam Mirzə üsyanını yatırmaq üçün oğlu Nəsrullah Mirzəni yenidən - ikinci dəfə Şamaxıya göndərdi. |

| | |
|---|---|
| **1743-cü ilin sonları** | Nəsrullah Mirzə şirvanlılalarla döyüşdə ağır məğlubiyyətə uğradı. Nadir şah Osmanlı dövləti ilə sülh müqaviləsi imzalayıb, əsas qüvvələrlə Azərbayjandakı üsyaları yatırtmağa yünəltdi. |
| **1743-cü ilin sonları** | Nəsrullah Mirzə Ağsu yaxınlığında baş vermiş döyüşdə II Sam Mirzə üsyanını yatırdı. |
| **1744-cü il** | Nadir şahın «Gələsən-görəsən» qalası üzərinə uğursuz hücum etdi. |
| **1745-ci ilin əvvəlləri** | Nadir şah yenidən «Gələsən-görəsən» qalası üzərinə uğursuz hücum etdi. |
| **1746** | "Gələsən-Görəsən" qalasının müdafiəçiləri müqaviməti dayandıraraq Nadir şaha tabe oldu. |
| **1747-ci il** | Nadir şah əleyhinə Ərdəbil və Təbrizdə III Sam Mirzənin başçılığı ilə üsyan baş verdi. |
| **1747 19 iyun** | Nadir şahın sui-qəsd nəticəsində öldürüldü. Nadir şahın öldürülməsindən sonra onun yaratdığı imperiya süqut etdi, Azərbaycan ərazisi xanlıqlara, sultanlıqlara və məlikliklərə parçalandı. |